“Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış”ın təqdim edilməsi

elektron xidmətinin

İstifadəçi təlimatı

“Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış”ın təqdim olunması məqsədilə https://new.e-taxes.gov.az Portalına daxil olub “Giriş” bölməsi seçilir.



“Giriş” bölməsinə daxil olduqdan sonra açılan pəncərədə “Asan İmza”, SİMA İmza və yaxud “SİMA Token” bölmələrindən biri seçilir.

İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “Asan İmza” bölməsi seçildikdə “Mobil nömrə” və “İstifadəçi ID” daxil edilir və “Daxil ol” düyməsi sıxılır.



İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “SİMA Token” bölməsi seçildikdə ilk öncə “SİMA Token” kompüterə qoşulur, sonra “Daxil ol” düyməsi sıxılır.

İstifadəçi tərəfindən elektron kabinetə daxil olmaq üçün “SİMA İmza” bölməsi seçildikdə “SİMA” mobil tətbiqi açılaraq ekrandakı QR kod skan edilir və kabinetə daxil olunur.

Növbəti mərhələdə açılan yeni pəncərədə **“Ərizələr”** modulu seçilir.



Daha sonra “Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış”ın təqdim olunması məqsədilə “Yeni ərizə” xanasına müraciətə uyğun arayışın adı yazılaraq axtarış nəticəsində

ekranda adı əks olunan arayış forması seçilir və yaxud **“Hamısına bax”** düyməsi vasitəsilə yeni açılan pəncərədə müvafiq arayış forması seçilir.



Əgər istifadəçi tərəfindən daha əvvəl bu arayış forması doldurularaq qaralamada saxlanmışdırsa, o zaman ekranda açılan pəncərədə əvvəl qaralaması yaradılmış arayış formaları əks olunur və seçim imkanı verilir. İstifadəçi əvvəllər qaralaması yaradılmış arayış forması üzrə davam etmək istədikdə ekranda qaralaması olan arayış forması seçilir və bu zaman aktivləşən **“Davam et”** düyməsi sıxılır və yeni pəncərədə əvvəl doldurulmuş arayış forması açılır və düzəliş imkanı mümkün olur.



Yeni arayış forması yaratmaq istənildikdə isə **“Yeni arayış yarat”** düyməsi sıxılır.



Açılmış arayış formasında əks olunan **“Siyahıya qayıt”** düyməsini sıxdıqda ekranda əks olunan pəncərədəki **“İmtina”** düyməsini sıxmaqla arayış formasının doldurulmasına qaldığı yerdən davam etmək, **“Xeyr, silinsin”** düyməsini sıxmaqla yaradılmış arayış formasını silmək, **“Bəli, yadda saxlanılsın”** düyməsini sıxmaqla yaradılmış arayış formasını yadda saxlamaq mümkün olur.



Açılan ekranda “Vergi orqanı”, “Vergi ödəyicisi”, “Arayışın növü” və “Vergi dövrü” barədə məlumatlar avtomatik olaraq əks etdirilir.



Növbəti mərhələdə “Sahibkarıq subyektinin meyarı” üzrə seçim edilir.



Qeyd: Sahibkarlıq subyektinin meyarı üzrə kiçik, orta və ya iri seçimi edildiyi halda uçot metodu olaraq “hesablama metodu” avtomatik olaraq seçilir.

İl ərzində seçdiyi metodun növü- VM 151.2

Cari vergi ili ərzində müvafiq arayış Vergi Məcəlləsinin 151.2-ci maddəsinə əsasən təqdim olunduğu halda (əvvəlki hesabat dövründə fəaliyyəti olan vergi ödəyicilərinə münasibətdə) “İl ərzində seçdiyi metodun növü” sətrində avtomatik olaraq **VM 151.2** seçilmiş vəziyyətdə olur.



Cari vergi ödəmələrinin hesablanması bölməsində 290-cı, 291-ci və 292-ci sətirlər avtomatik olaraq doldurulur.



293-cü sətir (cari rübdəki vergiyə cəlb olunan (xərclər nəzərə alınmadan) gəlirin həcmi) üzrə məlumatlar avtomatik inteqrasiya edilsə də, düzəliş etmək imkanı (cari rüb ərzində aparılan əməliyyatlarda dəyişiklik olduğu təqdirdə) mövcuddur.



293.1-ci sətirdə cari rüb üzrə güzəşt və azadolmaların məbləği qeyd edilir.

QEYD: *Əvvəlki hesabat dövründə gəlirlər üzrə güzəşt və azadolma tətbiq edilməklə hesablanmış verginin məbləği xüsusi çəki hesablanması zamanı nəzərə alındığı üçün 293.1 xanası yalnız cari hesabat dövründə güzəşt və azadolma hüququ əldə edən vergi ödəyiciləri tərəfindən doldurulmalıdır.*



294-cü sətirdə cari vergi ödəməsinin həcmi avtomatik olaraq əks etdirilir.



295-ci sətirdə (“Azaldılmalı vergi məbləği nəzərə alınmaqla ödənilməli cari vergi ödəməsinin həcmi”) mənfəət vergisi üzrə Vergi Məcəlləsinin 106.2-ci və 227.1-ci maddələrinə əsasən, xarici ölkələrdə ödənilmiş və nəzərə alınan mənfəət (gəlir) vergisinin məbləği, gəlir vergisi üzrə Vergi Məcəlləsinin 152.3-cü və 227.1-ci maddələrinə əsasən, xarici ölkələrdə ödənilmiş və nəzərə alınan mənfəət (gəlir) vergisinin məbləğləri nəzərə alınmaqla ödənilməli cari vergi məbləği qeyd edilir.

Vergi ödəyicisinin yuxarıda qeyd olunan nəzərə alınmalı ödənilmiş vergi məbləğləri olmadığı təqdirdə 295-ci sətirdə 294-cü sətirdə əks olunmuş məbləğ göstərilir.



İl ərzində seçdiyi metodun növü- VM 151.5

Vergi Məcəlləsinin 151.5-ci maddəsinə əsasən əvvəlki vergi ilində fəaliyyəti və ya vergi tutulan mənfəəti (gəliri) olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyicilərinə münasibətdə “İl ərzində seçdiyi metodun növü” sətrində avtomatik olaraq **VM 151.5** seçilmiş vəziyyətdə olur.



296-cı sətirdə (“Hesabat ili üzrə artan yekunla gəlirlərin həcmi”) vergi ödəyicisinin təqvim ili ərzində rüblər üzrə artan yekunla gəlirlərinin həcmi əks etdirilir. Müvafiq sətir üzrə məlumatlar avtomatik inteqrasiya edilsə də, düzəliş etmək imkanı (cari rüb ərzində aparılan əməliyyatlarda dəyişiklik olduğu təqdirdə) mövcuddur.



296.1-ci sətirdə (“o cümlədən hesabat ili üzrə artan yekunla güzəşt edilən və azadolunan gəlirin həcmi)” vergi ödəyicisinin təqvim ili ərzində rüblər üzrə artan yekunla güzəşt edilən və azadolunan gəlirinin həcmi qeyd edilir.



297-ci sətirdə (“Hesabat ili üzrə artan yekunla xərclərin həcmi”) təqvim ili ərzində rüblər üzrə artan yekunla xərclərin həcmi əks olunur.

297.1-ci sətirdə (“o cümlədən hesabat ili üzrə artan yekunla vergidən azad olunan və ya vergiyə cəlb edilməyən fəaliyyətlə bağlı bölüşdürülməsi mümkün olmayan xərclərin gəlirdən çıxılmayan məbləğlərinin cəmi”) təqvim ili ərzində rüblər üzrə artan yekunla vergidən azad olunan və ya vergiyə cəlb edilməyən fəaliyyətlə bağlı bölüşdürülməsi mümkün olmayan xərclərin gəlirdən çıxılmayan məbləğlərinin (misal olaraq qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclər) cəmi qeyd edilir.

Daxil edilmiş məlumatlar əsasında 298-ci sətirdə hesabat ili üzrə artan yekunla vergiyə cəlb olunan mənfəətin (gəlirin) həcmi müəyyənləşir.



298.1-ci sətirdə (“Hesabat ili üzrə artan yekunla güzəşt edilən və azadolunan mənfəətin (gəlirin) həcmi”) təqvim ili ərzində rüblər üzrə artan yekunla güzəşt edilən və azadolunan mənfəətin

(gəlirin) həcmi qeyd edilir. (Misal olaraq Vergi Məcəlləsinin 102.1.30-cu maddəsinə əsasən 298.1-ci sətirdə 298-ci sətirdə əks olunan məbləğin 75 faizi qeyd olunur.)



299-cu sətir (“Mənfəət (gəlir) üzrə kompensasiya edilməli keçmiş illərin zərəri”) əvvəlki vergi ilində fəaliyyəti və ya vergi tutulan mənfəəti (gəliri) olmayan vergi ödəyiciləri tərəfindən doldurulur və həmin sətirdə əvvəlki vergi ilində mənfəət (gəlir) vergisi bəyannaməsi üzrə mənfəət (gəlir) üzrə kompensasiya edilməli keçmiş illərin zərəri (Vergi Məcəlləsinin 121.3-cü maddəsi nəzərə alınmaqla) qeyd edilir.

Vergi ödəyicisinin yuxarıda qeyd olunan halda zərəri olduğu halda 299-cu sətirdə məlumatlar avtomatik əks etdirilir. Bu məbləğ istifadəçi tərəfindən azaldıla bilər, lakin artırıla bilməz.



300-cü sətirdə (“Cari vergi ödəməsinin həcmi”) **“**Hesabat ili üzrə artan yekunla vergiyə cəlb olunan mənfəətin (gəlirin) həcmi” xanasında göstərilən vergiyə cəlb olunan mənfəətin (gəlirin) məbləğini qüvvədə olan müvafiq vergi dərəcəsinə vurmaqla alınan cari vergi ödəməsinin məbləği qeyd edilir. ((298-298.1)-299 sətirlərinin fərqindən alınan məbləğin *20%)

Eyni zamanda müvafiq sətirdə (300-cü) əks olunan məbləğ (298-298.1)-299 sətirlərinin fərqindən alınan məbləğin *20%*75% həcmindən aşağı olmamalıdır.

301-ci sətirdə (“Azaldılmalı vergi məbləği nəzərə alınmaqla ödənilməli cari vergi ödəməsinin həcmi”) mənfəət vergisi üzrə Vergi Məcəlləsinin 106.2-ci maddəsinə və 227.1-ci maddələrinə əsasən, xarici ölkələrdə ödənilmiş və nəzərə alınan mənfəət (gəlir) vergisinin məbləği, gəlir vergisi üzrə Vergi Məcəlləsinin152.3-cü maddəsinə və 227.1-ci maddələrinə əsasən, xarici ölkələrdə ödənilmiş və nəzərə alınan mənfəət (gəlir) vergisinin məbləğləri nəzərə alınmaqla ödənilməli cari vergi məbləği qeyd edilir.

Vergi ödəyicisinin yuxarıda qeyd olunan nəzərə alınmalı ödənilmiş vergi məbləğləri olmadığı təqdirdə 301-ci sətirdə 300-cü sətirdə əks olunmuş məbləğ əks etdirilir.

Növbəti addımda arayışın göndərilməsi üçün aktivləşən “İmzala və göndər” düyməsi, qaralamada saxlanılması və daha sonra göndərilməsi üçün “Qaralamada saxla və çıx” düyməsi sıxılır.



“İmzala və göndər” düyməsi sıxıldıqdan sonra müvafiq ərizə forması imzalanaraq göndərilə və ya bu əməliyyatdan imtina edilə bilər.



“İmzala və göndər” düyməsi sıxıldıqda açılan pəncərədə “İmtina” düyməsi sıxılaraq yenidən əvvəlki pəncərəyə (ərizə formasının doldurulması pəncərəsinə) geri qayıdıla bilər.



“İmtina” düyməsi sıxıldıqdan sonra ekranda əks olunan “Sil” düyməsi sıxılmaqla ərizə forması silinə və ya əksinə bu əməliyyatdan imtina edilə bilər.





Arayış imzalanaraq göndərildikdən sonra yeni pəncərədə istifadəçi tərəfindən doldurulmuş məlumatlara uyğun arayış forması və müvafiq arayışın göndərilməsi barədə “Bildiriş” ekranda əks olunur. Həmin pəncərədə “Çap” düyməsi vasitəsi ilə arayış çap edilə, “Endir” düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər. “Bağla” düyməsi isə pəncərəni bağlamaq üçün nəzərdə tutulmuşdur.



İstifadəçi tərəfindən göndərilən “Cari vergi ödəmələrinin hesablanması haqqında Arayış” onun “Ərizələr” modulundakı “Göndərilənlər” qovluğunda əks olunur və bu hissədə arayışın statusu barədə məlumat qeyd olunur.



Eyni zamanda bu hissədən də “Çap” düyməsi vasitəsi ilə arayış çap edilə, “Endir” düyməsi vasitəsi ilə endirilə (yüklənilə) bilər.